**Akademik Tarih ve Düşünce Dergisi**

**Published by**
https://dergipark.org.tr/tr/pub/atdd

**Autumn 2022 / 9-3**
https://doi.org/10.46868/atdd.246

# Cinayət Təqibinin Mərhələləri (Nəzəri Mülahizələr)

**Hikmət Eyvazov***
**ORCID: 0000-0001-9731-6797**

**Öz**

Bu məqalədə qeyd olunur ki, cinayət təqibi prosessual fəaliyyətdir, cinayət təqibinin başlanması onun inkişaf mərhələlərini fərqləndirməyə imkan yaradır. Hesab edilir ki, cinayət təqibi üzrə fəaliyyətin mərhələləri məsələsində yanaşma tətbiq edilməlidir. Məqalədə hüquq ədəbiyyatında cinayət təqibinin mərhələləri ilə bağlı həm klassik cinayət prosesi nümayəndələri, həm də müasir tədqiqatçıların yanaşmalarının müqayisəli təhlili aparılır. Geniş nəzəri təhlillər əsasında belə nəticəyə gəlinir ki, Cinayət təqibinin mərhələli fəaliyyət kimi nəzərdən kecirilməsi vacibdir. Onun iki - məhkəməyədək icraat və məhkəmə icraatı üzrə diferensiallaşmış şəkildə həyata keçirilməsi qanunvericilikdə nəzərdə tutulur və hər bir mərhələnin özünəməxsus cəhətlərinin bu fəaliyyətə təsiri labüddür. Bu fəaliyyətin məzmun elementləri ilə bağlı müxtəlif yanaşmalar olmasına baxmayaraq hesab edilir ki, nəzəri yanaşma düzdür, tədqiqatın ana xəttinin müəyyən edilməsinə və təcrübi fəaliyyətin səmərəliliyinə xidmət edir.

**Anahtar Kelimeler:** Cinayət Prosesi, Cinayət Təqibi, Mərhələ, Məhkəməyədək Icraat, Məhkəmə Icraatı

**Gönderme Tarihi: 20/06/2022** **Kabul Tarihi:16/09/2022**

---

* *Dosent, Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinin rəisi, polis polkovniki, hüquq üzrə fəlsəfə doktoru, Bakı- Azərbaycan, ehg69@mail.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
EYVAZOV, H., "Cinayət Təqibinin Mərhələləri (Nəzəri Mülahizələr)", *Akademik Tarih ve Düşünce Dergisi,* C. 9, S. 3, 2022, s.678-687.

# Stages of Criminal Prosecution
# (Theoretical Reflections)

**Hikmət Eyvazov***
**ORCID: 0000-0001-9731-6797**

**Abstract**

This article notes that criminal prosecution is a procedural activity and the initiation of a criminal case allows us to identify the stages of its development. It is believed that the approach to the phases of criminal prosecution should be applied. The article provides a comparative analysis of the approaches of both classical and modern researchers to the stages of criminal prosecution in the legal literature. On the basis of extensive theoretical examinations, it is significant to consider criminal prosecution as a step-by-step process. Its implementation is differentiated in two ways - pre-trial proceedings and judicial proceedings, and the influence of the specifics of each stage on this activity is inevitable. Although there are different approaches to the content elements of this activity, it is believed that the theoretical approach is correct, and serves to determine the main direction of research and the effectiveness of experimental activities.

**Keywords**: criminal proceedings, criminal prosecution, stage, pre-trial proceedings, judicial proceedings.

**Received Date: 20/06/2022** **Accepted Date: 16/09/2022**

---

**Dosent, Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinin rəisi, polis polkovniki, hüquq üzrə fəlsəfə doktoru, Bakı- Azərbaycan, ehg69@mail.ru*

***You can refer to this article as follows:***
EYVAZOV, H., "Cinayət Təqibinin Mərhələləri (Nəzəri Mülahizələr)", *Academic Journal of History and Idea,* Vol. 9, Issue 3, 2022, p.678-687.

# ЭТАПЫ УГОЛОВНОГО ПРЕСЛЕДОВАНИЯ (ТЕОРЕТИЧЕСКИЕ РАЗМЫШЛЕНИЯ)

**Хикмет Эйвазов***
**ORCID: 0000-0001-9731-6797**

**Резюме**

В данной статье отмечается, что уголовное преследование является процессуальной деятельностью и возбуждение уголовного дела позволяет выделить этапы его развития. Считают, что следует поэтапно подходить к деятельности уголовного преследования. В статье проводится сравнительный анализ подходов как классических, так и современных исследователей к этапам уголовного преследования в юридической литературе. На основе обширного теоретического анализа приходим к такому заключению, что уголовное преследование важно рассматривать как поэтапный процесс. Его реализация предусмотрено двумя этапами - досудебное производство и дифференцированное судебное производство, причем влияние специфики каждогоэтапа на эту деятельность имеет свою особую специфику. Хотя существуют разные подходы к содержательным элементам этой деятельности, считается, что теоретический подход является правильным, служит для определения основного направления исследования и эффективности экспериментальной деятельности.

**Ключевые слова:**уголовное судопроизводство, уголовное преследование, стадия, досудебное производство, судебное производство.

**Получено: 20/06/2022** **Принято: 16/09/2022**

* *Dosent, Azərbaycan Respublikası DİN-in Polis Akademiyasının Elmi-tədqiqat və redaksiya-nəşriyyat şöbəsinin rəisi, polis polkovniki, hüquq üzrə fəlsəfə doktoru, Bakı- Azərbaycan, ehg69@mail.ru*

***Ссылка на статью:***
EYVAZOV, H., “Cinayət Təqibinin Mərhələləri (Nəzəri Mülahizələr)”, *академическая история и мысль*, T.9, NO.3, 2022, C. 678-687.

## Giriş

Cinayət təqibi prosessual fəaliyyətdir, təbii ki, onun başlanmasıcinayət təqibinin inkişaf mərhələlərini fərqləndirməyə imkan yaradır. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində cinayət təqibinə xüsusi III fəsil (37-44-cü maddələr) və IV fəsil – «Cinayət təqibi üzrə icraatın aparılması» adlı fəsillər (45-54-cü maddələr) həsr edilmişdir. Bununla yanaşı Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 7.0.4-cü maddəsində cinayət təqibi anlayışına aşağıdakı kimi tərif verilir: «cinayət təqibi-cinayət hadisəsinin müəyyən edilməsi, cinayət qanunu ilə nəzərdə tutulmuş əməli törətmiş şəxsin ifşa olunması, ittiham irəli sürülməsi, bu ittihamın məhkəmədə müdafiə edilməsi, ona cəza təyin edilməsi, zəruri olduqda prosessual məcburiyyət tədbirlərinin təmin edilməsi məqsədi ilə həyata keçirilən cinayət-prosessual fəaliyyətdir».[1] Birincisi, cinayət təqibi – bu, ittiham tərəfi subyektləri tərəfindən həyata keçirilən, onun hər bir nümayəndəsinin öz səlahiyyətləri daxilində cinayətlərin aşkar olunmasına, cinayətin törədilməsində şübhə edilən, təqsirləndirilən şəxsin qanuni və əsaslandırılmış surətdə ifşa edilməsinə doğru məqsədəyönlü prosessual fəaliyyətdir.İkincisi, cinayət təqibi – bu, cinayət-prosessual tədqiqinin sisteminin altsistemi kimi öz növbəsində aşağıdakı altsistemdən ibarətdir.[2]

## 1-Cinayət Təqibinin Mərhələlərinin Təhlili

Hesab edirik ki, cinayət təqibi üzrə fəaliyyətin mərhələləri məsələsində diferensial yanaşma tətbiq edilməlidir. Hüquq ədəbiyyatında cinayət təqibinin mərhələləri ilə bağlı həm klassik cinayət prosesi nümayəndələri, həm də müasir tədqiqatçılar arasında (sayı və məz-munu ilə bağlı) müxtəlif yanaşmalar mövcuddur. Müəlliflər arasında fikir ayrılığı bir sıra məsələlər ətrafindadir və bu fikir ayrilığı müəyyən mənada cinayət təqibinin anlayışı, başlanması anı və s. məsələlər ilə şərtləşirdi. Klassik rus ədəbiyyatlarında müəlliflər bəzi hallarda cinayət təqibi və ibtidai istintaq anlayışlarını eyniləşdiririr, bəziləri cinayət təqibi və ittiham anlayışlarını eyni mənalı anlayışlar kimi xarakterzə edirdilər. A.Y. Foynitski hələ XX əsrin əvvəllərində yazırdı ki, «cinayət təqibi» və «ittiham» anlayışları bir-biri ilə tam üst-üstə düşür.[3] M.S.Stroqoviç göstərirdi ki, cinayət təqibi – bu, cinayət-prosessual funksiya

---

[1]Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi, Bakı-2022.
[2]M.Qəfərov- H.Eyvazov, "Cinayət təqibinin anlayışı haqqında", Elmi məqalə, *Azərbaycan polisinin tarixi və inkişaf perspektivləri mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları*, 20.06.2018. s.20-28.
[3]A.Ya. Foinitsky, *Course of criminal proceedings*, v.2. St. Petersburg, 1912, p.7.

kimi ittihamdır, yəni ittihamedici fəaliyyətdir[4] V.M.Lebedevin redaktəsi altında nəşr edilmiş cinayət-prosessual hüquq dərsliyində deyilir ki, «cinayət mühakimə icraatında ittiham funksiyasının məzmununu cinayət təqibi təşkil edir».[5] Bəzi müasir prosessualist alimlər də ittihamla cinayət təqibi arasında prosessual funksiyalar kimi eyniliyin olduğunu təsdiq edirlər.[6] Təbii ki,bu da cinayət təqibi üzrə fəaliyyətin mərhələlı təhlili ilə bağlı fikirlərin formalaşmasına təsir etməyə bilməzdi. Məsələn, Rusiyalı prosessualist-alim S.İ.Viktorski cinayət təqibinin aşağıdakı mərhələlərini fərqləndirirdi:

1) cinayət təqibinin başlanması;
2) ibtidai istintaq;
3) müttəhim məhkəmədə ifşa olunması .[7]

Göründüyü kimi S.İ.Viktorski tərəfindən cinayət təqibinin yuxarıda təsvir edilən forması içərisində ibtidai istintaqı göstərməklə, ibtidai istintaqı cinayət təqibi ilə eyniləşdirmişdir və bu da, şübhəsiz ki,mübahisəyə səbəb olurdu, uğurlu hesab edilə bilməzdi. Ən azı ona görə ki, ibtidai istintaq və cinayət təqibi anlayışları və bu fəaliyyətin məzmunu eyni deyildir. Fikrimizcə, onlar bir-birinə bərabər tutula bilməz. Digər tərəfdən, ibtidai istintaq öz məzmunu etibarilə geniş və böyük həcmli fəaliyyətdir və o, nəinki ittiham, həm də müdafiə funksiyasının həyata keçirilməsinə yönəlmişdir. Cinayət təqibi isə belə yönüm tanımır. Məsələn, təhqiqatçı və ya müstəntiq ibtidai araşdırma gedişində nəinki təqsirləndirilən şəxsi ittiham edən, həm də ona bəraət verən bütün zəruri halları və sübutları toplamağa, onları araşdırmağa, tədqiq etməyə və nəhayət, qiymətləndirməyə borcludur. Təhqiqatçı və ya müstəntiq təkcə iş üzrə cinayət məsuliyyətini ağırlaşdıran halları deyil, həm də yüngülləşdirici halları tam, obyektiv və hərtərəfli surətdə yoxlamalıdır. Yəni məqsəd təkcə şəxsin təqsirkar olduğunu deyil, həm də cinayəti və əməlin cəzalanmalı olmasını istisna edən halları aşkar etməkdən ibarət olmalıdır.İbtidai araşdırmadan (ibtidai istintaqdan) fərqli olaraq, cinayət təqibi daha yığcam və tutumlu anlayışdır. Hüquq ədəbiyyatında keçən əsrin ortalarındaM.S.Stroqoviç cinayət təqibinin aşağıdakı üç mərhələsini müəyyən etmişdir: 1) cinayət təqibinin başlanması; 2) ibtidai istintaq

[4]M.S. Strogovich, *Criminal prosecution in the Soviet criminal process,* M., Gos-jurizdat, 1951, pp.73-74.
[5]V.I. Rokhlin, *Criminal prosecution and its meaning, Criminal procedural law,* St. Petersburg, 2004, p.26.
[6]O.I. Andreev, "Correlation between the function of prosecution and criminal prosecution according to the Code of Criminal Procedure of the Russian Federation", *Judicial reform and the formation of a rule of law state in the Russian Federation: based on materials of a scientific and practical conference.* M., 2003, p.137.
[7]S.I. Viktorsky, *Russian criminal process,* M., 1997, p.235.

mərhələsində cinayət təqibi; 3) məhkəmədə cinayət təqibi.[8]

Sonrakı dövrlərdə bunun daha geniş izahı verilir. X.F.Kovriqanın fikrincə, cinayət təqibi öz məzmununa görə aşağıdakı mərhələləri yaradır: 1) törədilmiş cinayətlərin aşkar olunması üzrə yerinə yetirilən hərəkətlər; 2)cinayət işinin başlanması;3)konkret şəxs barəsində ittihamedici sübutların toplanması; 4)ittihamın formalaşdırılması və elan edilməsi; 5)prosessual məcburiyyət tədbirinin istənilən növünün tətbiq edilməsi; 6) ittihamnamənin tərtib edilməsi; 7) məhkəmə instansiyalarında ittihamın müdafiə olunması.[9]

Digər yanaşma A.Q.Xaliulina tərəfindən irəli sürülür. O müasir dövr Rusıya cinayət prosessual qanunvericiliyinin müddəalarını rəhbər tutaraq, cinayət təqibinin məzmununa aşağıdakı hərəkətlərin və qərarların daxil edilməsini təklif edir:

1) konkret şəxs haqqda cinayət işinin başlanması;
2) konkret şəxsə münasibətdə ittihamedici sübutların toplanmasına yönələn istintaq hərəkətlərinin aparılması;
3) konkret şəxs barəsində cinayəti törətməkdə şübhənin irəli sürülməsi;
4) ittihamın formalaşdırılması və elan olunması;
5) irəli sürülmüş ittihamın sübuta yetirilməsinə yönələn istintaq hərəkətlərinin həyata keçirilməsi;
6) cinayət işinin ittiham aktının məhkəməyə göndərilməsi;
7) məhkəmə qarşısında ittihamın müdafiə edilməsi.[10]

Bu yanaşmada müəllif cinayət təqibinin Rusiya Federasiyasının Cinayət-Prosessual Məcəlləsinin 5-ci maddəsində verilən anlayışdan çıxış etmişdir və bu yanaşma cinayət təqibinin şəxsləşdirilmiş və yaxud dar mənada izahı konsepsiyasına əsaslanır. A.Q.Xaliulina X.F.Kovriqadan fərqi olaraq "törədilmiş cinayətlərin aşkar olunması üzrə yerinə yetirilən hərəkətləri" cinayət təqibinə aid etmir.

Cinayət təqibi üzrə fəaliyyətin məzmun və mahiyyətinin açıqlanması onu iki tərkib hissəyə ayırmağa imkan vermişdir:

– məhkəməyəqədərki icraatda cinayət təqibi (bunun mahiyyəti cinayətin törədilməsində təqsiri olan şəxsin ifşa edilməsi, əsaslandırılmış ittihamın hazırlanması məqsədi ilə cinayət-prosessual qanunvericiliklə müəyyən edilmiş qaydada cinayət

---

[8]M.S. Strogovich, *The course of the Soviet criminal process*, M., 1968, p.194.
[9]Z.F. Kovriga, *Procedural problems of criminal prosecution and protection*, Legal conflictology, Voronezh, 2000, p.52.
[10]A.G. Khaliulin, *Implementation of the function of criminal prosecution by the Prosecutor's Office of Russia*, Kemerovo, 1997, p.47.

hadisəsinin sübut edilməsindən ibarətdir);

– məhkəmədə cinayət təqibi (bunun mahiyyətini dövlət ittihamının müdafiəsi təşkil edir).[11]

S.İ.İlyin differensiasiyalı yanaşma əsasında məhkəməyəqədərki icraatda cinayət təqibinin daha geniş aşağıdakı inkişaf mərhələlərini fərqləndirir:

a) birinci mərhələ – «şəxsləşdirilməmiş» mərhələ: cinayət təqibinin yarandığı andan şübhə edilən şəxsin meydana çıxmasınadək davam edir;

b) ikinci mərhələ – "şəxsləşdirilmiş" mərhələ: şübhə edilən şəxs - müqəssir meydana çıxmışdır;

c) üçüncü mərhələ – məhkəməyəqədərki icraatda cinayət təqibinin başa çatdığı mərhələ: ittiham aktının tərtib edilməsi və cinayət işinin materiallarının prokurora göndərilməsi; cinayət işinə xitam verilməsi; cinayət təqibinə xitam verilməsi.[12]

Məhkəmədə cinayət təqibi prokuror tərəfindən ittiham aktının təsdiqi aktı ilə dövlət ittihamının başlanması və cinayət işinin məhkəməyə göndərilməsindən sonra başlanır. Digər müəllif V.F.Kryukov məhkəmədə cinayət təqibinin aşağıdakı mərhələlərini göstərir:

1) birinci instansiya məhkəməsində dövlət ittihamının həyata keçirilməsi; məhkəmə baxışının hazırlıq hissəsində ittiham tərəfi səlahiyyətlərinin əldə olunması; məhkəmə istintaqının başlanğıcında ittihamın məzmununun ifadə olunması; ifadə olunmuş ittihamın əsaslandırılması və sübutların tədqiq edilməsində iştirak etmə; dövlət ittihamı tərəflərin məhkəmə çıxışlarında (zərurət yarandıqda çıxışların bütün iştirakçıları tərəfindən etdikləri nitqlərdəki nəticələri üzrə replikaların ifadə olunması ilə) ittiham nitqinin söylənilməsi ilə başa çatır, yaxud ittihamdan tam və ya qismən motivləşdirilmiş imtina etmə ilə bitir;

2) apellyasiya, kassasiya, nəzarət qaydasında cinayət işlərinin icraatı mərhələlərində yeni açılmış hallar üzrə ittihamın müdafiəsi.[13]

Fikrimizcə, cinayət təqibinin məzmununun (inkişaf mərhələlərinin) müəyyən edilməsi üçün əsas məqam «ifşa» terminidir ki, bu da cinayət təqibinin nəinki məqsədi, həm də cinayət təqibinin məqsədlərinə nail olunması vasitəsidir. Bu halda ifşa etmə – bu, cinayətin törədilməsində şəxsin təqsirinin sübuta yetirilməsi üzrə bu fəaliyyətin məzmununu (mərhələlərini) səciyyələndirən və təsvir edən mərhələlərdən ibarət fəaliyyət qaydasıdır.

---

[11]G. Korolev, Unity and differentiation of the function of criminal prosecution, Legality 2007, No. 7, p.6.

[12]S.I. Ilyin, *To the question of the concept of criminal prosecution in the activities of interrogators of the customs authorities of the Russian Federation,* Customs business 2007, No. 3, p.6.

[13]V.F. Kryukov, *Criminal prosecution in court proceedings: criminal-procedural and supervisory aspects of prosecutors' activities*, Kursk 2010, p.22.

## Nəticə

Cinayət təqibinin Azərbaycan RespublikasınınCinayət-Prosessual Məcəlləsində verilən anlayış cinayət təqibinin geniş mənada vasitəlı və yaxud şəxsləşdirilməmiş izahı konsepsiyasını əks etdirir. Belə olduqda cinayət təqibinin yalnız konkret şəxslər barəsində həyata keçirilən ittihamedici fəaliyyət hesab edilməsi ilə bağlı yanaşma onun dar mənada izahını ifadə edir və nə qədər ki, Cinayət-prosessual Məcəllədə leqal anlayış qüvvədədər, cinayət təqibi anlayışı bu kontekstdə nəzərdən kecirilməlidir. Metodik cəhətdən cinayət təqibinin mahiyyəti iki aspektdən xarakterizə edilməlidir, cinayət təqibinin şəxsləşdirilməmiş və şəxsləşdirilmiş cinayət təqibi kimi xarakterizə olunmasi onun mahiyyətinin düzgün anlaşılmasına xidmət edəcəyi şübhəsizdir. Lakin bu zaman yadda saxlamaq lazimdir ki, cinayət təqibinin məhkəməyədək icraatda mərhələləli izahında fərqli yanaşma özünü göstərəcəkdir.

Cinayət təqibi cinayət mühakimə icraatı strukturunun əsasını təşkil edir.Bundan başqa, cinayət təqibi cinayət mühakimə icraatında yardımçı, yaxud köməkçi fəaliyyət deyil,məhz həmin icraatın hərəkətverici qüvvəsidir. [14] Cinayət təqibinin mərhələli fəaliyyət kimi nəzərdən kecirilməsi vacibdir. Onun iki- məhkəməyədəkicraat və məhkəmə icraatı üzrə diferensiallaşmış şəkildə həyata keçirilməsi qanunvericilikdə nəzərdə tutulur və hər bir mərhələnin özünəməxsus cəhətlərinin bu fəaliyyətə təsiri labüddür. Bu fəaliyyətin məzmun elementləri ilə bağlı müxtəlif yanaşmalar olmasına baxmayaraq hesab edirik ki,nəzəri yanaşma düzdür, tədqiqatın ana xəttinin müəyyənedilməsinə və təcrübi fəaliyyətin səmərəliliyinə xidmət edir.

[14]Midhəd Qəfərov-Hikmət Eyvazov, "Azərbaycan Respublikasının cinayət prosesində cinayət təqibi ilə bağlı mülahizələr", *Polis Akademiyasının elmi xəbərləri jurnalı*, № 3 (31), 2021, s.35-40.

## Ədəbiyyat

*Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi,* Bakı 2022.

QƏFƏROV, M.-EYVAZOV H., "Cinayət təqibinin anlayışı haqqında", *Azərbaycan polisinin tarixi və inkişaf perspektivləri mövzusunda beynəlxalq elmi-praktik konfransın materialları*, 20.06.2018. s.20-28.

FOINITSKY, A.Ya., *Course of criminal proceedings*, v.2. St. Petersburg, 1912.

STROGOVICH, M.S., *The course of the Soviet criminal process*, M., 1968.

Criminal procedure law. Textbook / Under. ed. V.M. Lebedev. M., 2012, p.50. (in Russian)

ANDREEV, O.I., "Correlation between the function of prosecution and criminal prosecution according to the Code of Criminal Procedure of the Russian Federation", *Judicial reform and the formation of a rule of law state in the Russian Federation: based on materials of a scientific and practical conference*. M., 2003, p.137.

ALEKSANDROV, A.S.- POLYAKOV M.P., *Criminal prosecution: lecture-consultation.* M., 2002.

ROKHLIN, V.I., *Criminal prosecution and its meaning, Criminal procedural law.* St. Petersburg, 2004.

VIKTORSKY, S.I., *Russian criminal process*, M., 1997.

STROGOVICH, M.S., *Criminal prosecution in the Soviet criminal process.* M., Gos-jurizdat, 1951.

KOVRIGA, Z.F., *Procedural problems of criminal prosecution and protection, Legal conflictology,* Voronezh, 2000.

KHALIULIN, A.G., *Implementation of the function of criminal prosecution by the Prosecutor's Office of Russia*, Kemerovo, 1997.

KOROLEV, G., *Unity and differentiation of the function of criminal prosecution,* Legality No. 7. 2007.

ILYIN, S.I., *To the question of the concept of criminal prosecution in the activities of interrogators of the customs authorities of the Russian Federation*, Customs business, No. 3, 2007.

KRYUKOV, V.F., *Criminal prosecution in court proceedings: criminal-procedural and supervisory aspects of prosecutors' activities*, Kursk, 2010.

QƏFƏROV, M. –EYVAZOV, H., "Azərbaycan Respublikasının cinayət prosesində cinayət təqibi ilə bağlı mülahizələr", *Polis Akademiyasının elmi xəbərləri jurnalı*, № 3 (31), 2021. S.35-40.

DAANOV, C.A., *Actual problems of criminological research of the identity of a juvenile offender, Technium Social Sciences Journal*, 2022, 32(1), s.745-749.